

*Mərhəba, insani-kamil, canımın cananəsi,*
*Aləmin cismi sədəfdir, sənmisən dürdanəsi?*

*Vəchini səb'ül-məsani oxuyan gündən bəri,*
*Gör ki, nə divana düşmüş aşiqin divanəsi.*

*Ta səqahüm şərbətindən içdi bu xəstə könül,*
*Seyri-öv ədnayı buldu, qaynadı xümxanəsi.*

*Çün bizə mə'lum olubdur mə'niyi-ümmül-kitab,*
*Arifəm, səm'imə sığmaz zahidin əfsanəsi.*

*Şol Xızır biçarə içmiş abi-heyvan dedilər,*
*Ta ləbin eyninə irməz, yoxdur onun xanəsi.*

*Əhsəni-təqvim bilən nəçük ənəlhəq deməsin?*
*Bəs nədən bərdar olubdur Mənsurun divanəsi?*

*Kafirin bütxanəsi var, mö'minin – Beytülhəram,*
*Aşiqin yar eşigidir Kə'bəvü bütxanəsi.*

*Şəm'i-vəhdətdir camalın, söhbəti rövşən qılır,*
*Qarşıda xoş-xoş yanadır Seyyidin pərvanəsi.*